# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/15** **06 mart 2017-ci il**

**Auditorlar Palatasında "dəyirmi masa"nın təşkil edilməsi və fəaliyyəti barədə**

Yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər) və Auditorlar Palatasının 2017-ci il üzrə iş planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək, auditin təşkilinin və tənzimlənməsinin qabaqcıl audit təcrübəsi nəzərə alınmaqla təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə

**QƏRARA ALIRAM:**

1. Auditorlar Palatasında təcrübəli auditorlardan və əməkdaşlardan ibarət aşağıdakı tərkibdə "dəyirmi masa" yaradılsın:

| | |
|---|---|
| Altay Cəfərov | - sərbəst auditor; |
| Anar Hacızadə | -"PRİME AUDİT AND KONSALTİNQ" MMC-nin təsisçisi; |
| Elçin Qurbanov | - "VXA-AUDİT" MMC-nin direktoru; |
| Elnur İbrahimov | - Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri, sərbəst auditor; |
| Elnur Qurbanov | - "Deloitte&Touche" MMC-nin auditoru; |
| İbiş Əliyev | - Auditorların peşə etikası və üzvlük komitəsinin sədri, sərbəst auditor; |
| İlham Hacıəzizov | - sərbəst auditor; |
| Qəşəm Bayramov | - Auditorlar Palatası Aparatının rəhbəri; |
| Maarif Abbasov | - Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi; |
| Mübariz Əkbərov | - sərbəst auditor; |
| Namiq Abbaslı | - Beynəlxalq standartlar və metodiki təminat komitəsinin sədri, "ANR AUDİT" MMC-nin direktoru; |
| Natiq Kərimov | - "PREMİUM-AUDİT" MMC-nin direktoru; |
| Nazim Axundov | - sərbəst auditor; |

| | |
|---|---|
| Nəcəf Talıbov | - Sədrin elmi-metodik məsələlər üzrə müşaviri; |
| Səbuhi Gülməmmədov | - Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi; |
| Səməd İsgəndərov | - sərbəst auditor; |
| Şahbaz Məmmədov | - “Cavid-Audit” MMC-nin direktoru; |
| Üzeyir Fətiyev | - Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri, sərbəst auditor; |
| Vəli Kərimov | - Keyfiyyətə nəzarət komitəsinin sədri, sərbəst auditor; |
| Vəli Rəhimov | - Maliyyə və təsərrüfat idarəsinin rəisi; |
| Yaşar Namazəliyev | - Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri; |
| Zamin Hüseynov | - “MAK AZƏRBAYCAN LTD” MMC-nin direktoru; |
| Zərifə Şəhriyarlı-Rzayeva | - Aparatın koordinatoru, “dəyirmi masa”nın katibi. |

2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Aparatın koordinatoru Z.Şəhriyarlı-Rzayevaya tapşırılsın ki, on gün müddətində Palatanın müvafiq struktur bölmələri və Palata Şurası yanında Komitələrlə birgə Auditorlar Palatasında keçiriləcək “dəyirmi masa”ların gündəliyini və qrafiklərini razılaşdırıb təqdim etsinlər və nəzərdə tutulan məsələlərin müzakirəsini təmin etmək üçün müvafiq tədbirləri həyata keçirsinlər;

3. Aparatın koordinatoru Z.Şəhriyarlı-Rzayevaya tapşırılsın ki, “dəyirmi masa”nın işində onları maraqlandıran mövzular üzrə iştirak etmək arzusunda olan Palata üzvlərinin iştirakına şərait yaratsın və “dəyirmi masa”ların nəticələrinin protokollaşdırılmasını və təşviqini təmin etsin;

4. Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.B.Zeynallıya tapşırılsın ki, bu sərəncamın mətninin və keçiriləcək “dəyirmi masa”lar haqqında informasiyaların Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**SƏDR** **V.NOVRUZOV**